İbayev, P. Vətən müharibəsində tarixi qələbəmiz xalqımızın qürur mənbəyinə çevrilib / Pərviz İbayev // Xalq qəzeti. - 2021. - 6 iyul. - № 138. - S. 4.

Prezident İlham Əliyev 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəfləri gerçəkləşdirmək üçün ötən müddətdə istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirdi və “güclü dövlət” konsepsiyasını reallaşdırmağa nail oldu. Bununla da dövlətimizin başçısı xalqımızın bütün istək və arzularını reallaşdıran, öz fəaliyyətində Azərbaycanın milli maraqlarını ən ali məqsəd kimi görən, bütün qüvvəsini bu istiqamətə yönəldən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi liderə çevrildi.

Bu gün tam əminliklə deyə bilərik ki, hadisələri, prosesləri dəqiq qiymətləndirmək, taleyüklü məsələlərin elmi cəhətdən əsaslandırılmış həlli yollarını təqdim etmək istedadına malik Prezident İlham Əliyev 2020-ci ildə ölkəmizin ərazi bütövlüyünü reallaşdıran lider kimi də adını tarixə əbədi yazdırdı, Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaratdı və 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanı oldu.

İkinci Qarabağ savaşında tarixi qələbənin əldə edilməsində isə ən önəmli amil Silahlı Qüvvələrimizdəki ruh yüksəkliyi, xalq-Prezident-ordu vəhdəti oldu. Bu, Azərbaycana qarşı başlanan hücum əməliyyatlarının ilk günlərindən minlərlə gəncin orduya könüllü kimi yazılmasında, dinc insanların təxribatlar zamanı evlərini tərk etməmələrində özünü göstərdi. Bu, döyüşlər getdiyi dövrdə hər gün Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəsmi “Twitter” səhifəsində, xarici televiziya kanallarına verdiyi müsahibələrində, hadisələrin gedişatı ilə bağlı xalqa məlumat verməsində, ordumuzun nailiyyətlərini dəqiqliklə vətəndaşlarımızın diqqətinə çatdırmasında özünü büruzə verdi. Bu, eyni zamanda, Azərbaycanı bütün dünyaya güclü orduya malik bir dövlət, xalq-Prezident birliyinin təmin olunduğu bir respublika kimi tanıtdı.

Birmənalı şəkildə deyə bilərik ki, 44 günlük müharibə dövründə ordumuz haqq-ədalət uğurunda savaş apardı. Eyni zamanda, beynəlxalq hüquq da ölkəmizin tərəfində idi.

Silahlı Qüvvələrimizin sarsıdıcı cavab zərbələri qarşısında geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların əlavə protokollarını, BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə alır, döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqda yerləşən şəhərləri və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tuturdu.

Beləliklə, Ermənistan cəbhədə aldığı ağır məğlubiyyətlərin acısını dinc sakinlərdən çıxır və Azərbaycanın mülki şəxslərini hədəf alırdı. Düşmən ölkəyə qarşı siyasi-diplomatik təzyiqlərin olmaması və işğalçının əməllərinin qınanılmaması onu yeni cinayətlər törətməyə sövq edirdi. İstifadəsi qadağan olunmuş raketlərin dinc insanlara qarşı tətbiqi isə çoxsaylı mülki şəxsin həlak olması ilə nəticələnirdi.

Prezident İlham Əliyev həmin vaxt Ermənistanın daim bu cür mənfur siyasət yürütdüyünü, işğalçının hər zaman döyüş meydanında məğlubiyyətə uğrayanda belə çirkin əməllərə əl atdığını bildirir, sivillərə, əliyalın insanlara qarşı qəddarlıq göstərməyin Ermənistan hakimiyyəti üçün adi bir hal olduğunu, Azərbaycan xalqının bunu Xocalı soyqırımının timsalında gördüyünü deyirdi.

Həmin hadisələr zamanı cəmiyyətimizlə bərabər səfərbər olan prokurorluq orqanları da əlaqədar dövlət qurumları ilə əlaqəli şəkildə fəaliyyət göstərərək, üzərlərinə düşən vəzifələri yerinə yetirir, Ermənistanın silahlı qüvvələrinin beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhalini atəşə tutması, muzdlulardan döyüş əməliyyatlarında istifadə etməsi, terrorizm və sair kimi cinayət faktlarının hər biri üzrə dərhal cinayət işləri başlayırdılar. Döyüş əməliyyatlarının aparıldığı şəraitdə istintaq qruplarının üzvləri həyat və sağlamlıqlarını risk altına ataraq hadisə yerlərinin müayinəsi, maddi sübutların götürülməsi və digər mümkün istintaq hərəkətlərinin aparılması istiqamətində zəruri tədbirlər görürdülər.

Vətən müharibəsi zamanı Azərbaycan Respublikasının dinc rayon və şəhərlərinin əraziləri mərmi və raket atəşinə tutulması nəticəsində 93 nəfər, o cümlədən 12 azyaşlı və 27 qadın qətlə yetirilib, 407 nəfər, o cümlədən 50 azyaşlı və 101 qadın müxtəlif dərəcəli bədən xəsarətləri alмış, çoxsaylı əmlaka ziyan vurulмuş, fərdi evlər, yardımçı tikililər, çoxmənzilli yaşayış binaları, qeyri-yaşayış sahələri, ayrı-ayrı dövlət qurumlarına məxsus inzibati binalar, dini obyekt, məscid, kilsə və qəbiristanlıqlar dağıdılmışdır.

Prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı bir məqamı da qeyd etmək yerinə düşərdi. Müharibə zamanı erməni vəhşiliklərinin dünya dövlətlərinin hüquq-mühafizə orqanlarına və aidiyyəti beynəlxalq təşkilatların diqqətinə çatdırılması, düşmənin əsl xarakterinin tanıdılması, iç üzünün göstərilməsi qarşıya mühüm vəzifə kimi qoyulmuşdu. BMT-nin İnsan Hüquqlarının Müdafiəsi üzrə Komissarına, Avropa Şurasının insan hüquqları ilə bağlı rəsmi şəxslərinə, MDB ölkələrinin Baş Prokurorlarının Əlaqələndirmə Şurası və digər beynəlxalq təşkilatlara, eləcə də 25 ölkənin baş prokurorlarına və ədliyyə nazirlərinə Ermənistanın törətdiyi cinayətlər haqqında məktublar, 37 xarici dövlətin səlahiyyətli orqanına hüquqi yardım göstərilməsinə dair 46 vəsatət göndərilməsi də məhz bunun bariz ifadəsi idi.

Qarabağın, eləcə də ətraf rayonların təbii sərvətləri işğal dövründə düşmən tərəfindən talan edilib, ekologiyaya böyük ziyan vurulub, meşələr demək olar ki, sıradan çıxarılıb. Bu ərazilərdə yerin təkinin istismarı qaydalarını kobud şəkildə pozan xarici ölkələrin şirkətləri tərəfindən qanunsuz sahibkarlıq fəaliyyəti göstərilib. Onların qanunsuz əməlləri ilə bağlı cinayət işləri başlanılıb, həmçinin işğal altındakı ərazilərimizdə qanunsuz məskunlaşmanı həyata keçirən bütün təqsirli şəxslərin beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri aparılıb.

Başlanılmış cinayət işləri üzrə erməni vandalizmi nəticəsində məqsədli şəkildə talan edilmiş, dağıdılmış yaşayış məntəqələri, həmçinin tarixi, dini-mədəni abidələrə və digər əmlaklara dəymiş ziyanın, eləcə də atəşkəsin davam etdiyi dövrdə əldən çıxmış faydanın məbləğinin

müəyyənləşdirilməsi məqsədilə prokurorluq orqanları tərəfindən digər qurumlarla əlaqəli şəkildə müvafiq işlər davam etdirilir.
Hazırda düşməndən təmizlənən ərazilərdə bərpa-quruculuq işləri koordinasiya olunan şəraitdə, vahid mərkəzdən idarə edilərək həyata keçirilir. Bu torpaqlarda bütün layihələr ardıcıllıqla reallaşdırılır, məcburi köçkünlərin doğma yurdlarına qayıdışı üçün ərazilər minalardan təmizlənir, erməni vandallarına qarşı beynəlxalq səviyyədə təzminat davasının açılması üçün onların vurduqları ziyan qiymətləndirilir, lazımi inventarlaşdırma, pasportlaşdırma işləri görülür.
Ağdam təsdiqlənən Baş Plan əsasında qurulur. İndi Şuşa, Füzuli, Cəbrayıl və digər şəhərlərin də baş planlarının hazırlanması üzrə iş gedir. Ağdam şəhərində gələcəkdə iş yerlərinin yaradılması üçün Sənaye Parkının təməli qoyulub. Bu park üçün təqribən 200 hektara yaxın ərazi nəzərdə tutulub. Bərdə-Ağdam avtomobil yolunun yaxın gələcəkdə istismara veriləcəyi planlaşdırılıb. Eyni zamanda, dövlət başçımızın göstərişi ilə Bərdə-Ağdam dəmir yolunun və dəmir yolu vağzalının tikintisi də nəzərdə tutulub. Ağdamda İmarət kompleksinin bərpası ilə əlaqədar işlərə artıq start verilib. Burada İşğal və Zəfər muzeyləri konsepsiyası da hazırlanıb. Digər obyektlərin, o cümlədən böyük meşə sahəsinin təməli qoyulub.
Onu da qeyd edək ki, yaxın gələcəkdə bütün Qarabağ bölgəsi "yaşıl enerji" zonası olacaq. Bütün şəhərlər "ağıllı şəhər" konsepsiyası əsasında qurulacaq.
Bərpa-quruculuq layihələri ilə yanaşı, Azərbaycan və Rusiya prezidentlərinin, eləcə də Ermənistan baş nazirinin ötən il noyabrın 10-da imzaladıqları birgə bəyanatın bəndlərinin icrası istiqamətində də ciddi tədbirlər görülür. Bəyanatın 9-cu maddəsində bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunmasının zəruriliyi vurğulanır. Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının reallaşdırılması nəzərdə tutulur. Fevralın 14-də Prezident İlham Əliyevin Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoyması da sözügedən bəyanatın həmin maddəsinin icrasına başlanılmasının bariz ifadəsidir.
Sonda ölkəmizin, eləcə də regionun həyatına önəmli təsiri olacaq taleyüklü bir hadisəyə də toxunmaq istərdim. Belə ki, iyun ayının 15-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfəri çərçivəsində Şuşada Prezident İlham Əliyevlə birgə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsini imzaladı. Bu bəyannamə tarixi köklərə, möhkəm təmələ əsaslanan Türkiyə-Azərbaycan birliyinin sarsılmaz olduğunu bir daha göstərdi. Eyni zamanda, bu sənəd hər iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətin qarşılıqlı şəkildə əlaqələndirilməsinin bundan sonra da diqqətdə saxlanılacağı əminliyi yaratdı. Buna görə də bəyannamə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və dövlətimizin başçısı İlham Əliyev tərəfindən "iki ölkə arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinin yol xəritəsi" kimi yüksək dəyərləndirildi.
Şuşa Bəyannaməsində Türkiyə ilə Azərbaycanın dostluq və qardaşlıq münasibətlərini daha da gücləndirmək, regionda sülhü və sabitliyi qorumaq, möhkəmləndirmək məqsədi daşıyan bir

sıra önəmli vəzifələr öz ifadəsini tapıb. Həmin vəzifələr 44 günlük müharibədən sonra bölgədə yaranan yeni əməkdaşlıq imkanlarını reallaşdırmaq istiqamətində önəmli addımlar atan iki qardaş ölkənin sülhə, əmin-amanlığa sadiq qaldığını göstərməklə bərabər, Cənubi Qafqazı sülh regionuna çevirmək məqsədi daşıdığından xəbər verir.

Şuşa Bəyannaməsindən bəhs edərkən, bir məqama da xüsusi toxunmaq istərdim. Vətən müharibəsindəki parlaq qələbəmizin əsasında bir sıra amillərlə yanaşı, son illərdə ordu quruculuğunun inkişafı istiqamətində gerçəkləşdirilən layihələr də xüsusi yer tutub. Silahlı Qüvvələrimiz inkişaf etmiş texnologiyalardan peşəkar şəkildə istifadə edib. Bununla da Azərbaycan Vətən müharibəsində müasir döyüş tarixinin tamamilə yeni bir parlaq səhifəsini yazıb.

Bu sözləri ona görə deyirəm ki, Bəyannamədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır. Bu, tarixi nailiyyətdir. Bu, eyni zamanda, bir daha göstərir ki, Azərbaycan və Türkiyə indiyədək olduğu kimi, bundan sonra da hər zaman bir-birinin yanında olacaq, bir-birinin təhlükəsizliyini təmin edəcək.

Şuşa Bəyannaməsində Silahlı Qüvvələrimizin yeni çağırışlara uyğun olaraq yenidən formalaşdırılması, modernləşdirilməsi və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi bu baxımdan xüsusi diqqət çəkir. İki qardaş ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunması istiqamətində sıx əməkdaşlığı da nəzərdə tutulur. Eyni zamanda, bəyannamədə bu məqsədlə səlahiyyətli struktur və qurumların qarşılıqlı əlaqəli fəaliyyətinin təmin edilməsi vurğulanır.

Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsini parlaq qələbə ilə başa çatdırmasını şərtləndirən bir neçə amilə nəzər salsaq, bunu aydın görə bilərik. Belə ki, həmin amillərə döyüş hazırlığının bütün tələblərini yerinə yetirmək üçün şərait yaradılması, irimiqyaslı təlimlərin keçirilməsi, ordunun Ali Baş Komandanın diqqəti və səyi nəticəsində ən müasir döyüş vasitələri ilə silahlandırılması, artilleriya və aviasiyanın, eləcə də digər sahələrin inkişaf etdirilməsi daxil edilə bilər.

Buraya, həmçinin hər iki ölkənin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafe, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin aparılması daxildir.

Qeyd edim ki, Şuşa Bəyannaməsində iki qardaş dövlətin bir-birinə qarşılıqlı hərbi yardım göstərəcəkləri barədə razılıq əvvəlki hüquqi sənədlərdə də qeyd olunub. Bu fikirlərin Şuşa Bəyannaməsinin müddəalarında yenidən ifadə olunması isə dünya ictimaiyyəti, o cümlədən, regional dövlətlər, məğlubiyyəti ilə barışa bilməyən Ermənistan üçün ciddi siyasi mesajdır. Bu siyasi mesajda aydın şəkildə ifadə olunur ki, Azərbaycan təhdid və təcavüzlə qarşılaşarsa, Türkiyə təkcə mənəvi-siyasi deyil, həmçinin hərbi dəstəyini əsirgəməyəcək.

Tarixi sənəddə Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, Cənub

Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunması və daha da inkişaf etdirilməsinə yönəldilmiş səylərin əlaqələndirilmiş şəkildə davam etdirilməsi, Azərbaycan ilə Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələlər də yer alır.